# THE PROBLEMS OF THE VILLAGE IN AZERBAIJANI LITERARY PROSE

**Jahangir Mammadli**[1]

**UDC:** 821.353.3.09(=Azerbaijan)
**LBC:** 83.3(5Aze)-8
**HoS:** 95
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.71-83

**Keywords:**

Azerbaijani literary prose,
Village life,
Social analysis,
Realism,
Literary studies

## ABSTRACT

In Azerbaijani literary prose, the theme of the village occupied a central place in the 20th century, particularly during the 1960s–1990s. This period was enriched with works that realistically and poetically reflected the social, economic, and cultural problems of village life. Unlike earlier periods, village prose explored not only agriculture but also human and societal relations in depth.

The main themes of these works include the universality of the village, preservation of traditions, and social issues. Writers such as I. Melikzade, S. Ahmadov, S. Azeri, Isa Huseynov, and M. Suleymanly depicted the village's socio-economic conditions, the inner world of individuals, and matters of conscience. Additionally, the novella genre of this period extensively presented the socio-psychological portrait of the village.

Azerbaijani village prose differs from Russian prose in that village characters are not limited to geographical and sketch descriptions; they focus on national-moral and socio-psychological characteristics. Traditional heroes give way to complex, realistic, and poetic characters. Literary scholars note that the primary issues in village-themed literature relate to land, labor, and socio-economic conditions.

In conclusion, Azerbaijani village prose of the 1960s–1990s reflects a bold, socially and aesthetically rich period in terms of both themes and style. The depiction of village problems is presented not only realistically but also poetically and aesthetically, enhancing the significance of this period in Azerbaijani literature.

[1] Professor, Doctor of Philological Sciences,
Head of Department of National Press History, Baku State University, Faculty of Journalism; Baku, Azerbaijan
E-mail: mammadli.cahangir@mail.ru
https://orcid.org/0009-0002-9185-9242
**To cite this article:** Məmmədli, C. [2025]. The Problems of the Village in Azerbaijani Literary Prose. *History of Science journal*, *6*(4), pp.71-83.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.71-83

***Article history:***
*Received: 27.06.2025*
*Accepted: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# AZƏRBAYCAN BƏDİİ NƏSRİNDƏ KƏNDİN PROBLEMLƏRİ

**Cahangir Məmmədli**[1]

**UOT:** 821.353.3.09(=Azərbaycan)
**KBT:** 83.3(5Aze)-8
**HoS:** 95
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.71-83

**Açar sözlər:**

Azərbaycan bədii nəsri,
Kənd həyatı,
Sosial təhlil,
Realizm,
Ədəbiyyatşünaslıq

## ANNOTASİYA

Azərbaycan bədii nəsrində kənd mövzusu XX əsrin 1960-90-cı illərində mərkəzi yer tutmuşdur. Bu dövr kənd həyatının sosial, iqtisadi və mədəni problemlərini realist və poetik şəkildə əks etdirən əsərlərlə zənginləşmişdir. Kənd nəsri əvvəlki dövrlərdən fərqli olaraq, təkcə kənd təsərrüfatını yox, həm də insan və cəmiyyət münasibətlərini dərindən işləmişdir.

Əsərlərdə kəndin qloballığı, ənənələrin qorunması və sosial problemlər əsas mövzulardır. Yazıçılar İ. Məlikzadə, S. Əhmədov, S. Azəri, İsa Hüseynov və M. Süleymanlı kəndin sosial-iqtisadi vəziyyətini, insanın daxili dünyasını və vicdan məsələlərini təsvir etmişlər. Həmçinin bu dövrdə povest janrı kəndin sosial-psixoloji portretini geniş şəkildə təqdim etmişdir.

Azərbaycan kənd nəsri rus povestindən fərqlənir; burada kənd obrazları yalnız coğrafi və oçerklərlə məhdudlaşmır, milli-mənəvi və sosial-psixoloji xüsusiyyətlərə fokuslanır. Ənənəvi qəhrəmanlar yerini kompleks, realist və poetik obrazlara vermişdir. Ədəbiyyatşünaslar qeyd edirlər ki, kənd mövzusunda əsas problem torpaq, əmək və sosial-iqtisadi vəziyyətlə bağlıdır.

Beləliklə, 60-90-cı illər Azərbaycan kənd nəsri mövzu və üslub baxımından cəsarətli, sosial və estetik baxımdan zəngin bir dövrü əks etdirir. Kəndin problemlərinin təsviri yalnız realist deyil, həm də poetik və estetik səviyyədə təqdim olunmuşdur, bu da dövrün Azərbaycan ədəbiyyatında xüsusi əhəmiyyətini artırır.

[1] Professor, Filologiya elmləri doktoru,
Milli mətbuat tarixi kafedrasının müdiri, Bakı Dövlət Universiteti, Jurnalistika fakültəsi; Bakı, Azərbaycan
E-mail: mammadli.cahangir@mail.ru
https://orcid.org/0009-0002-9185-9242
**Məqaləyə istinad:** Məmmədli, C. [2025]. Azərbaycan Bədii Nəsrində Kəndin Problemləri. *History of Science jurnalı*, 6(4), səh.71-83.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.71-83

***Məqalənin tarixçəsi:***
*Məqalə redaksiyaya daxil olmuşdur: 27.06.2025*
*Təkrar işlənməyə göndərilmişdir: 28.07.2025*
*Çapa qəbul edilmişdir: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

# ПРОБЛЕМЫ ДЕРЕВНИ В АЗЕРБАЙДЖАНСКОЙ ХУДОЖЕСТВЕННОЙ ПРОЗЕ

**Джахангир Маммадли**[1]

**УДК:** 821.353.3.09(=Азербайджан)
**ББК:** 83.3(5Азе)-8
**HoS:** 95
**DOI:** 10.33864/2790-0037.2025.v6.i4.71-83

**Ключевые слова:**

Азербайджанская художественная проза, Деревенская жизнь, Социальный анализ, Реализм, Литературоведение

## АННОТАЦИЯ

В азербайджанской художественной прозе тема деревни занимала центральное место в XX веке, особенно в 1960–1990-е годы. Этот период обогатился произведениями, которые реалистично и поэтически отражали социальные, экономические и культурные проблемы деревни. В отличие от предыдущих эпох, деревенская проза рассматривает не только сельское хозяйство, но и человеческие и общественные отношения на глубоком уровне.

В произведениях основными темами являются глобальность деревни, сохранение традиций и социальные проблемы. Писатели И. Меликзаде, С. Ахмедов, С. Азери, Иса Гусейнов и М. Сулейманлы изображают социально-экономическое положение деревни, внутренний мир человека и вопросы совести. Кроме того, в этот период жанр повести широко представил социально-психологический портрет деревни.

Азербайджанская деревенская проза отличается от русской: образы деревни не ограничиваются только географией и очерками, а фокусируются на национально-моральных и социально-психологических особенностях. Традиционные герои уступают место сложным, реалистичным и поэтическим образам. Литературоведы отмечают, что ключевая проблема в деревенской тематике связана с землей, трудом и социально-экономическим положением.

Таким образом, азербайджанская деревенская проза 1960–1990-х годов отражает смелый, социально и эстетически богатый период как по темам, так и по стилю. Описание проблем деревни представлено не только реалистично, но и на поэтическом и эстетическом уровне, что повышает значимость этого периода в азербайджанской литературе.

[1] Профессор, Доктор филологических наук,
Заведующий кафедрой Истории национальной прессы, Бакинский государственный университет, Факультет журналистики; Баку, Азербайджан
E-mail: mammadli.cahangir@mail.ru
https://orcid.org/0009-0002-9185-9242

**Цитировать статью:** Маммадли, Д. [2025]. Проблемы Деревни в Азербайджанской Художественной Прозе. *Журнал History of Science*, *6*(4), с.71-83.
https://doi.org/10.33864/2790-0037.2025.v6.i4.71-83

**История статьи:**
*Статья поступила в редакцию: 27.06.2025*
*Отправлена на доработку: 28.07.2025*
*Принята для печати: 15.09.2025*

**Copyright:** © 2025 by AcademyGate Publishing. This article is an open access article distributed under the terms and conditions of the CC BY-NC 4.0. For details on this license, please visit https://creativecommons.org/licenses/by-nc/4.0/.

## 1.Giriş

Dünyanın bir çox ölkələrində olduğu kimi Azərbaycan bədii söz sənətinində ötən əsrin 1960-90-cı illər dövründə "kənd nəsri" kimi ifadə edilən bir termin haqlı olaraq ədəbi tənqiddə geniş işlənmişdir. Qəribədir ki, ədəbi növlər içərisində kənd mövzusu, kənd problemləri ən çox nəsrdə öz ifadəsini tapmışdır. Tənqidçilər "müharibədən sonrakı nəsrin əsas keyfiyyət dəyişikliyindən biri kimi məhz kənd nəsrini qeyd edirlər" [Вильчек, 1985]. Bu fikrin nə qədər dəqiq olub-olmaması ətrafında mübahisə etmək olar, lakin həqiqət orasındadır ki, keçmiş dünya nəsrində həmin qolun məhsuldarlığı heç vaxt bu qədər bol olmamışdır. Mətbuatda və ədəbi tənqiddə mübahisə daha çox "kənd nəsri" termini ətrafında olmuşdur" [Вильчек, 1985]. O ki, qaldı nəsrin bu qolunun məhsuldarlığı və hiss olunacaq dərəcədə özünü büruzə verməsi – bu barədə mübahisə gecə-gündüzün mövcudluğu haqqında mübahisə qədər gülünc görünərdi. İndiki halda da söhbət o dövrün kənd mövzusunda nəsrin xüsusiyyətlərindən, onu doğuran və inkişaf etdirən səbəblərdən getməlidir.

Qeyd edək ki, ötən əsrin 60-cı illərindən güclənən kənd nəsri özündə yeni üslub, lirik, naturfəlsəfi və s. ədəbi cərəyanları birləşdirir. Bu mövzuda ədəbi əsərlərə də həmin mövqedən yanaşmaq olar.

## 2."Kənd nəsri" anlayışı dünya və rus ədəbiyyatı kontekstində

Müasir rus nəsrində çox zaman kəndə marağın artmasını 1950-ci illərdə V. Oveçkinin oçerklərindən gələn problemlərlə bağlamaq dəb düşüb [Вильчек, 1977]. Doğrudur, bu jurnalistin 1950-ci illərdə kənd problemlərini cəsarətlə üzə çıxaran əsərləri çoxdur və bu əsərlər nəsrin öz yönünü kəndə tutmasında xeyli rol oynayıb. Lakin bu, heç də o demək deyildir ki, rus kənd nəsri öz başlanğıcını bu illərdən alır. Bu sadə həqiqəti sübut etmək üçün N. Karamzindən, L. Tolstoydan, V. Korolenkodan, A. Çexovdan üzü bəri ustad yazıçıları xatırlamaq kifayətdir.

Azərbaycan nəsrinin də ən maraqlı nümunələrinin lap yaranmışdan bəri kəndlə bağlı olduğunu heç kim inkar etməz. C. Məmmədquluzadənin, Ə.Haqverdiyevin, Əbülhəsənin, S.Rəhimovun, Ə.Vəliyevin, M.İbrahimovun, İ.Əfəndiyevin... əsərləri buna sübutdur. Lakin məsələ burasındadır ki, 60-cı illər nəsri bu mövzunu tamamilə yeni şəkildə, yeni məzmunda qoydu, onun bədii həllini verdi. Bu illərin yazıçıları üçün kənd iqtisadi, coğrafi, yer mənasından daha çox hikmət kəsb etdi. O dövrün kənd mövzusunda yazan nasirlərin povestləri içərisində qaldırdığı problemlərin qlobballığına, ənənələrin dirçəldilməsinə bağlı sənət əsərləri sırasında yenə də V. Rasputin, F. Abramov, V. Belov kimi söz ustalarının təsiri böyük oldu. 1970-ci illərdə "Azərbaycan" jurnalı öz səhifələrində o dövrdəki sovet nəsrinin ən maraqlı nümunələrini verirdi [Шукшин]. Professor P. Xəlilov da o vaxtlar qeyd edirdi ki, "Azərbaycan yazıçılarının son illər ərzində müasir kənd mövzusunda yazdığı nəsr əsərləri göstərir ki, ədiblərimiz kənd həyatını yaxşı bilirlər" [Xəlilov, 1979]. Doğru fikirdir, lakin bir şeyi əlavə edək ki, "müasir kənd mövzusunda" yazan ədiblərimizin hamısı kənddən çıxmış adamlar idi və onların kəndi bilmələri heç bir təəccüb doğurmamalıdır. "İnsanınsa kökə, ilkinliyə, yurda bağlılığı çox təbii hisdir. İllər keçdikcə bu duyğu bir qədər də dərinləşir və illah ki, həmin yurddan aralı düşəsən. O zaman, təbii ki, həmin yerləri - təxəyyüldə bir az da poetikləşən ağappaq gecələri, ay işığını, yaşıl otları, çiçəkləri, badam ağaclarını... daha artıq sevməyə başlayırlar. Lakin bunlar hələlik təbiətlə bağlı duyğulardır. Əsl duyğu isə o doğma yerlərin ictimai-etik cazibəsidir [Yusifli, 1984, s.45].

## 3.Azərbaycan nəsrində kənd mövzularının formalaşması və inkişafı

Həqiqətən, Azərbaycan nəsrində kəndi ifadə edən nasirlər qəribsədikləri təbiət mənzərələrindən kəndin ictimai problemlərinə qədər ciddi inkişaf yolu keçdilər [Cabbarov, 1984, s.51]. Bu inkişaf yolu sürətli oldu. 60-cı illərin sonunda hələ kəndin qərib mənzərələri üçün darıxan M. Süleymanlı, İ. Məlikzadə və başqaları 70-ci illərin əvvəllərindən artıq kəndin çox ciddi problemlərini ifadə edirdilər. Yazıçılar da var ki, həmin problemləri

çoxdan görürdülər, lakin o problemlərin obyektiv ifadəsi üçün rəsmi sovet ideologiyası imkan vermirdi. S.Əhmədov, B.Bayramov, C.Əlibəyov kimi nisbətən yaşlı nəslin nəsrində kəndin qayğıları açıq və gizli formalarda az-çox öz əksini tapırdı. 70-ci illər nəsrinin cavan nümayəndələrinin əksəriyyəti isə bütün təzyiqlərə baxmayaraq Azərbaycan kəndinin dərdlərini daha açıq qoymağa başladılar. S.Azərinin "İlk təkan", "Ölə bilməyən adam", "Bozdağın nağılı" [Azəri, 1984], İ.Məlikzadənin "Dədə palıd" [Məlikzadə, 1982], M.Süleymanlının “Ot”, "Noxdalı adam", "Dağlarda şeytan" [Süleymanlı, 1988], "Duzsuzluq" [Süleymanlı, 1985] və s. povestləri öz cəsarəti ilə, sənətkarlıq keyfiyyətləri ilə, kəndin obyektiv təsviri ilə diqqət çəkirdi.

70-ci illər rəsmi dövlət, partiya mətbuatından fərqli olaraq, Yazıçılar İttifaqının orqanları müəyyən dərəcədə "sərbəstlik" edə bilirdi. “Kommunist” qəzeti Azərbaycan kəndinin "yüksək inkişafından", bu "kəndin adamlarının xoşbəxtliyindən" bəhs edən oçerkləri zorla oxucunun gözünə soxanda ədəbi jurnallar bu tipli - tərif, mədhiyyə tipli kənd əsərlərinə öz səhifələrində yer vermirdi. Bununla əlaqədar mədhiyyələr müəllifi Ə.Mirzəcəfərlinin Az. KP MK-nın birinci katibinə rəsmi şikayəti, bəzi jurnallının antisovet xəttində olmasını iddia etməsi dövrü ədəbi ictimaiyyətinin yaxşı yadındadır.

Kəndin sosial və ictimai yararsızlıq problemlərini əks etdirən nəsr nümunələrini təqdir və təbliğ edən tənqid də yox deyildi. Lakin tənqidin böyük bir qolu nəsrin qaldırdığı problemləri qəsdən qulaqardına vurur, xırda detalları mövzuya çevirməklə canını qurtarırdı.

Tənqid panoramının aydınlığı üçün gətirdiyimiz bu uzun misala diqqət etdikdə qəribə bir paradoksla qarşılaşırıq. Tənqidçi kənd mövzusunda yazan nasirləri nöqsanları qamçılamağa çağırmaq əvəzinə, bu əsərlərdəki tənqid obyektlərini qəsdən "bulanıq gölməçə", "boz qobular", "göy milçəklər" kimi ifadələrlə ucuzlaşdırır.

Halbuki həmin əsərlərin qaldırdığı problemlərin həyatiliyinə və ciddiliyinə biz bu gün heyran qalmağa başlamışıq. P. Xəlilov məqalələrinin birində haqlı göstərir ki, nəsrimizdə kəndin koloritini yalnız peyzajla, yalnız danışıq ədaları əlvanlığında axtarmaq, əlbəttə, birtərlilik olardı. Müasir kəndimizin koloriti onun ictimai-iqtisadi və mədəni həyat tərzinin özünəməxsusluğundadır, kolxozçunun bugünkü məişət tərzinin xüsusiyyətlərindədir, başlıca olaraq kəndlərimizin düşüncəsindədir. Ədiblərimiz insan qəlbinin ən məhrəm guşələrini görür, onların həyəcanlarını, düşüncələrinin inkişafını, bəzən toz basmış güzgüyə oxşayan və tozu silinən kimi parlayan xatirələr aləmini həssaslıqla duyur və bizi bu qapalı aləmə aparırlar [Xəlilov, 1979].

Yazıçılarımız birinci növbədə kəndin nöqsanlarını yaradan, buna səbəb olan adamları məhşər ayağına çəkirlər.

Tənqidçi P. Xəlilov F.Qocanın, İ.Məlikzadənin və başqalarının povestlərindəki həmin keyfiyyətləri qeyd edir:

“Fikrət Qocanı da kənddəki bəzi haqsızlıqlar narahat etmiş və nəsrə üz tutaraq "Mavi dünyanın adamları”nı - kolxoz quruculuğunda “him” qoyanları indi "hazırına nazir olan" bəzi qudurğanlara qarşı qoymuşdur. Belə konfliktə Vaqif Nəsibin povestlərində də rast gəlirik. Hər iki yazıçı vəzifəni şəxsi şöhrət üçün pillə sayıb, layiqli adamları öz ayağı altında əzib ucalmaq istəyən qudurğanları tənqid edir.

İsi Məlikzadə elə sədrləri tənqid edir ki, onlar cəmiyyətimizin ədalət normalarına kəm baxır, xalq malını mənimsəyib harınlaşır, əxlaqsızlığa qurşanır və bütün bu çürük həyat tərzi ilə öz ailəsinə də dərin quyu qazırlar. Elçinin əxlaqsızlıq quyusuna yuvarlanmış surətlərinin qarşısında ona təzad təşkil edən gənclik dayanmışdır. Fikrət Qoca da əsgərlik məktəbini keçməkdə olan gəncliyə ümid bəsləyir [Xəlilov, 1979].

Tədqiq etdiyimiz dövrün nəsr təsərrüfatına diqqət etdikdə belə suallar qarşıya çıxır: Son illər kənd mövzusunda yazılmış əsərlərimizdə hansı mənzərə ilə qarşılaşırıq? Bu mənzərənin aydınlaşdırılması 70-80-ci illər ədəbi tənqidinin mühüm tədqiqat obyekti olmuşdur. Q. Xəlilovun "Torpağa sədaqətlə" [Xəlilov, 1979], Y. Seyidovun "Kəndimiz və

nəsrimiz" [Seyidov, 1979], P. Xəlilovun “Kəndin qayğılarına həssaslıqla” [Xəlilov, 1979], “Həyatımız və nəsrimiz” [Xəlilov, 1981] kimi onlarca məqalə və çıxışları göstərir ki, tənqid bu mövzuya biganə qalmamışdır. Hətta son illərdə bu mövzuda xüsusi monoqrafiyanın nəşrinin də şahidi olmuşuq [Əliyeva, 1989]. Bütün bu əsərləri – istər kənd mövzusunda nəsr bolluğunu, istərsə də bolluğun saf-çürük edilməsini təmin edən cəhətlər hansılardır? Bu suala cavabdan əvvəl sənətkarın kəndə üz tutmasını şərtləndirən keyfiyyətlər üzərində əsaslı dayanmağı lazım bilirik.

Dünyada şəhərlər böyüyür, şəhərlər çoxalır, kənd kiçilir, kənd azalır. Elə bil insanlar bir-birilə ögeyləşmək üçün bir-birini itirmək, bir-birinə soyuqqanlı, etinasız olmaq üçün şəhərlərə yollanırlar, şəhərlərdə məskən salmağa çalışırlar. Şəhərlər də elə bil ağızlarını açıb bir-birinə ögeyləşmək, tənhalaşmaq üçün ona pənah gətirən insanları udmağı, əritməyi özlərinə şay bilirlər. Tarixin bizim üçün görünə bilən bizdən ən uzaq nöqtələrində hələ heç vaxt şəhər əhalisi kəndi ötməyib. Nə qədər ki, tarixin o uzaq nöqtəsindən üzü bəri gələn yolda kənd əhalisi say üstünlüyünü şəhərə verməmişdi o qədər də dünya təmiz olub, yer-göy təmiz olub, süd elə süd tamında, gilas elə gilas tamında olub, bir təndirin çörək ətri bir mahala bəs eləyib, elə insanın özü də, gözü də, daxili də, sözü də saf olub, büllur olub. Elə ki, kənd əhalisi özünün say üstünlüyünü şəhərə verdi, dünyanın bir tərəfi ondaca əyildi, qaçhaqaç, qovhaqov düşdü, göy üzünü tüstü bürüdü, yer qabığını kimya tutdu, təndirin çörək ətri qeybə çıxdı, özü də, gözü də, daxili də, sözü də saflıqdan uzaqlaşdı...

Tarixin bu təhlükəli anının yaxınlaşdığını hər kəsdən artıq sənət dünyası duydu. İtirmək ağrısını heç vaxt unutmayacağımız Xudu Məmmədov deyərdi: Nə qədər ki, kənd qurtarmayıb, uşaqları göndərin kəndə, heç olmasa, bir az kənd dünyası görsünlər.

Daha heçnə deməzdi. Amma bu sözlər bizi fikrə çəkərdi, qorxuzardı bir az. Burada böyük, müdrik alimin açıq deməyə ehtiyat etdiyi bir məntiq vardı: kənd qurtarır, kəndin təmiz dünyası tükənir.

Yaponiyada kənd yoxdur. Mən bu fikri soyuqqanlı bir adamın dilindən eşitmişəm və o vaxtdan bəri özümə gələ bilmirəm. Kəndi şəhərə qarşı qoymaq fikrindən çox-çox uzağam. Ancaq şəhərin qurtarmaq xəbəri məni heç vaxt qorxuda bilməzdi. Kəndin qurtarması ilə başlanan sivilizasiya ölümə doğru yolun sürət başlanğıcıdır. Kəndin qurtarması ilə başlanan tərəqqi hər şeyin süniliyidir, saxtalığıdır. Kəndin tükənməsi milli faciədir, o mənada ki, onunla birlikdə xalqın min illik ukladı, min illik özünəməxsusluğu tükənir, onun yerinə qonşunun qonşunu tanımadığı yeknəsək bir şəhər həyatı başlayır.

Xalqın itməkdə, tükənməkdə olan milli keyfiyyətlərini heç olmasa bir müddətə tutub saxlamaq arzusuyla kənd mövzusunu özünə yaradıcılıq yolu seçən Vasili Belov, Valentin Rasputin, Fyodor Abramov və s. kimi onlarca sənətkarın məhz XX yüzilliyin 60-cı illərində sənətə gəlməsi bu mənada heç təəccüb doğurmur. Təsəlli verən odur ki, şəhərin kəndi üstələməsi prosesini, 70-ci illərdə bəşər tarixində ilk dəfə şəhər əhalisinin kənddən çox olmasını duyan yazıçılarımız oldu. Beləliklə, sənət böyük bir problemlə üzləşdi, sənət bu problemin həyəcan təbilini çaldı. 60-cı illər dünya prozasının çox mühüm bir qolunu kənd mövzusunda yaranan əsərlər təşkil etdi. Əvvəl-əvvəl “şəhər” yazıçıları bir cür baxdılar bu yazıçılara. Tənqidin özü də kənd nəsrinin kənd nəsri olduğunu deməkdən bir az çəkindi: yazıçı, sənətkar inciyə bilər bu epitetdən - ehtiyat bundan idi. Lakin kənd nəsrinin müəllifləri çox mühüm bir problem qaldırdıqlarını yaxşı bilirdilər. Onlar kəndin tükənməyə doğru gedən yolda bütöv xalqın, ölkənin faciəsini dərk edirdilər. Və problemin bu qloballığı qarşısında heç bir epitet, heç bir ayama onları maraqlandırmırdı. Kim deyə bilər ki, kəndin problemləri ona yaddır? Şəhər yalnız ona görə şəhərdir ki, o minbir tellərlə kəndə bağlıdır. Mışıl-mışıl yatan şəhər cavanının xoruz banı yuxusuna haram qatıb yaylıma çıxan kən uşağından nə xəbəri var? Şüşə kimi asfalta düşən yağış gölməçəsindən minbir yerə şikayət ərizəsi yazan şpilka kabluk sahibi səhərin alatoranlığında körpəsinin yorğanından nigəran sağıcının o palçıqlı cığırla fermaya tələsdiyini bilirmi görən? Kraxmallı ağappaq köynəklə

bədənnuma güzgünün qarşısında özünə sığal çəkən ziyalının şimal çaylarının cənuba – pambıq tarlalarına döndərilməsinə qarşı bu qədər əsəbi münasibətini də heç cürə başa düşmək olmur.

Amma bütün bunları görən sənətkar gözü çoxdandır ki, öz həyəcan təbilini çalmaqdadır. Kənd nəsrinin, cəsarətlə deyə bilərik ki, böyük qollarından birini Azərbaycan yazıçılarının əsərləri təşkil edir. Durğunluq illərində nəyin yerində saydığını desək də, kənd mövzusunda nəsrin cəsarətlə söz dediyini inkar etmək olmaz. İndi bu əsərlərə yenidən qayıdırsan və hiss edirsən ki, Bayram Bayramov, İlyas Əfəndiyev, İsa Hüseynov, Sabir Əhmədov, Əkrəm Əylisli, İsi Məlikzadə, Sabir Azəri, Mövlud Süleymanlı, Seyran Səxavət və s. kimi yazıçılarımız 70-ci illərdə özünün "xoşbəxt" günlərini yaşayan Azərbaycan kəndini, onun adamlarını, minbir qayğısını yaxşı görüblər, vaxtında deyiblər, haray salıblar. O başqa məsələ ki, nə o deyənləri eşitmək istəyiblər, nə o haraylara bir səs verən olub. Lakin deməyinə deyiblər.

Doğrudur, kənd mövzusunda nəsrin tənqiddə sahibsiz qaldığından gileylənmək düzgün olmazdı. 70-ci illər nəsri Q.Xəlilov, A.Hüseynov, K.Vəliyev, A.Məmmədov, N.Cabbarov kimi cəsarətli, obyektiv tənqidçilərin həmişə diqqətində olub. Lakin kənd mövzusunda nəsrimizin qaldırdığı problemləri, onun sənətkarlıq məqamlarını, bu nəsrin özünəməxsus poetikasını kompleks şəkildə araşdırmaq işində hələ borcumuz çoxdur.

S.Əhmədov, İ.Məlikzadə, S.Azəri yaradıcılığı ilə müasir kənd mövzusunda Azərbaycan nəsrinin ideya, mövzu, sənətkarlıq keyfiyyətlərini ümumiləşdirən tədqiqatçıların bir sıra maraqlı müşahidələri var. Kəndin - xüsusilə Azərbaycan kəndinin uğurları və çətinliklərini özündə əks etdirən əsərlər sırasında S.Əhmədovun roman və povestləri, ayrıca olaraq "Dünyanın arşını", "Azığa doğru", "Toğana" əsərlərinin təhlili ön plana çəkilib. Tədqiqatçılar haqlı olaraq bu tipli əsərlərdə torpağa, yurda qayıtmaq probleminin güclü qoyulduğunu göstərirlər. Bu roman və povestlərin, hekayələrin kənddən şəhərə yollanmış əksər obrazları haradasa bəxti gətirməmiş, həyatda öz yerini axtarışda olan adamlardır. Onların uşaqlıq dünyası xalqın milli özünəməxsusluğunun, kökünün, soyunun, psixologiyasının daha çox qorunub saxlandığı məkanda keçib. Ona görə də onlar nə qədər asan yaşayış yolu arasalar da, o, uşaqlıq illərində xalqdan, el-obadan götürdükləri vicdan payı ara-sıra dillənməyə bilmir, insanı öz əzəlinə, torpağa səsləməyə bilmir. Hətta bu çağırışa etinasızlıq faciəyə çevrilir, insanın sonuna aparıb çıxarır. "Söyüdlərin sarı işığında" Kazım kəndə yalnız ata mülkünü satmaq üçün, mülkün pulu ilə şəhər güzaranı qurmaq üçün qayıdırsa, qayıdanbaş onun qatardaca ölməsi qətiyyən təəccüb doğurmur. Ata yurdu, ata mülkü ümiddir, insanı yaşadan işıqdır və işığın sönməsi ilə ömrün bitməsinin eyni vaxta düşməsi qanunauyğun haldır.

S.Əhmədov, İ.Məlikzadə, S.Azəri və digər yazıçıların nəsrində artıq adamların, bəxti gətirməyən kənd adamlarının obrazlarını maraqlı təhlil obyektinə çevirən tədqiqatçı N.Əliyevanın bir sıra dəyərli fikirləri ilə yanaşı S.Azərinin "Dalan"da romanındakı Qafar kimi, "həyatda öz ictimai dayaqlarını itirmiş, zəhmətdən, real aləmdən uzaq düşmüş, artıq adamlara çevrilmiş surətlərin" "sənətə, ədəbiyyata" yalnız "humanizm" naminə götürməyin lazımlığını" iddia edəndə müəlliflə razılaşmaq olmur. Çünki bədii ədəbiyyat çox vaxt əsasən elə bu adamları özünə obyekt seçmişdir. F.Dostoyevskini, L.Tolstoyu, C.Məmmədquluzadəni, A.Çexovu xatırlamaq kifayətdir.

Kənd nəsri sənətkarlarının hər birinin özünəməxsus yaradıcılıq yolu var, özünəməxsus üslubu, mövzu seçimi, ifadə tərzi var. Bu yazıçıları və onların nəsrindəki ailə-məişət münasibətlərini; milli özünəməxsusluğun təzahür formalarını, zamanın sınağında bu obrazların yerini tədqiq etmək bu gün üçün də vacibdir.

N.Əliyeva kənd nəsrini yaxşı bilir. Elə bu bələdçilik də tədqiqatçıya ailə-məişət, torpaq qayğılarından, etik-estetik problemlərdə kəndin qayğılarından danışanda maraqlı elmi ümumiləşdirmələr aparmağa imkan verir. Xüsusilə bu ümumiləşdirmələr İ.Məlikzadənin

“Quyu”, “Yaşıl gecə”, “Dədə palıd” povestləri ətrafında xeyli güclənir. Ancaq bir cəhəti qeyd edərdik ki, tədqiqatçı bütün problemlərdə daha çox S.Əhmədova müraciət edir. Bu müraciət bəzən o qədər çoxalır ki, qalan obyektləri kölgədə qoyur.

Tənqidin və tədqiqatın əsas gücü onun polemikası ilə, təhlilin fəlsəfi yönü ilə, ümumiləşdirmənin qabiliyyəti ilə ölçülür. Bu cəhətlərin hər biri N.Əliyevanın kənd nəsrini özünə təhlil obyekti seçən monoqrafiyasında var. Lakin təəssüf ki, müəllif bəzi hallarda polemika xatirinə polemika açır, irad xatirinə irad axtarır. Əlbəttə, haqqında söhbət gedən nəsrin nöqsansızlığı fikrindən uzağıq. Ancaq tutulan iradlar elə əsaslandırılmalıdır ki, təkcə tənqidçinin özünü yox, oxucunu da inandırsın.

Haqqında söhbət gedən nasirlər kəndli əməyi, torpaq və zəhmət problemini çox güclü qoyublar. Monoqrafiyada bu mövzudan geniş söhbət gedir və müəllif maraqlı illustrativ faktlarla nəsrimizdə yazıçı narahatlığını, sənətkar yanğısını yaxşı təqdim edir. Adamların ictimai işi ilə əməyinin, xarakteri ilə şəxsi fəaliyyətinin əlaqələndirilməsi məqamında S.Əhmədov nəsrinin gücü haqlı olaraq qabağa çəkilir. Lakin bu keyfiyyətləri digər nasirlərdə də axtarmaq cəhdi və onların yoxluğundan narahatlığı artıq hesab edərdik. Əksinə bənzərsizliyi bəyənmək, stereotiplikdən qaçmağı alqışlamaq yaxşı olardı.

İnsan və ətraf mühit, rəhbər partiya işçisi və kənd kimi mövzuları araşdırarkən tədqiqatçı maraqlı faktlara müraciət edir. Bu yerdə - yəni təbiətin, torpağın qorunması, onun ilkin vəziyyətinin bərpası problemindən danışanda S.Əhmədov nəsri daha çox köməyə gəlir. Bu da təbiidir. Çünki S.Əhmədov, bəlkə də, hamıdan artıq torpaq dərdi, ekologiya dərdi çəkir və təbiətin məhvərindən çıxarılmasının nəticələrini daha yaxşı görür. S.Əhmədov təbiətin bütövlüyünü, torpağın müqəddəsliyini, dünyanın təmizliyini insanın bütövlüyü, insanın müqəddəsliyi, insanın təmizliyi ilə paralelləşdirir. Bu ideya onun bütün nəsrinin əsasında dayanır.

Kənd mövzusunda nəsrin yolu çox da hamar deyildi. Rəsmi ideologiya, güclü senzura bu nəsrin qarşısına sədd çəkib. "Dünyanın ən demokratik ölkəsi" olan Sovetlər İttifaqı bu demokratiyaya görə yazıçını ən çox gözümçıxdıya salan bir dövlət olub. Nəsrin müasir nöqsanlarının, qələmə alınan nümunələrin başına açılan oyunlar indi də yaddaşlardadır. Belə anlarda yazıçı dözməzliyi, sənətkar yorğunluğu ortaya çıxırdı və nasir öz mövzularından əl çəkirdi. Kəndin ən ciddi sosial dərdlərini cəsarətlə qoyan "Dünyanın arşını" əsərinə qadağalar qoyulandan sonra "S.Əhmədov yenə də əvvəlki kimi ideoloji narahatlıqla qarşılanan, bir yox, bir neçə dəfə nəşr edilən romanlar yazmağa məcbur oldu” [Qarayev, 1988, s.66]. Kənd nəsrinin ən cəsarətli və ən mükəmməl nümunələrini yaratmış “İ.Hüseynov elə ilk maneə ilə rastlaşan kimi bu gün üçün də müasir, perspektivli üslubdan çox asan əl çəkdi, tarixdən yazmağı tarix üçün (!) yazmaqdan üstün tutdu” [Qarayev, 1988, s.66]. Halbuki ədəbi ictimaiyyət özü şahiddir ki, İ.Hüseynov Azərbaycan kəndinin ən ciddi dərdlərini nəsrə gətirən ustad yazıçı rolunda idi. “Həm müasir İnsan və şəxsiyyət naminə ("Yanar ürək"), həm də təbiətə, meşəyə sui-qəsd əleyhinə ("Teleqram") həyəcan təbili" [Qarayev, 1988, s.66] çalan İ.Hüseynovun öz mövzusundan imtina etməsi heç kimin xeyrinə olmadı.

Tənqidçilərin "senzuradan yan keçmək üçün miyanə bir terminlə - "neqativ hallar" anlayışı ilə ifadə etdikləri sosial problemlərin ifşa prosesini dayandırmaq artıq mümkün deyildi. “Sonrakı illərin bədii tədqiqində gerçəkliyin neqativ məqamlarına nüfuz daha geniş miqyas aldı”. Əvvəllərdə olduğu kimi “yalnız ayrı-ayrı nüsxələr –“mənfi” sədr, rüşvətxor hesabdar və dələduz müfəttiş surətləri yox, bütünlükdə sosial psixologiya - alverçi kənd... obrazı yaranmağa başladı [Qarayev, 1988, s.68]. Bu prosesdə kənd nəsrinin povest qolu misisliz bir sürətlə iş görürdü. İ.Məlikzadə, S.Səxavət və b. xüsusi cəsarətlə povest janrında kəndin ən aktual problemlərini qoyurdular.

İ.Məlikzadənin “Yaşıl gecə” povesti bu baxımdan maraqlıdır. Povest kənd adamının yeni tipini ortaya qoyur. "Kəndin mənəvi yetkinliyə can atan tipini canlandırmaq

baxımından povest maraqlı nümunədir”. Müəllif "Quyu" povestində qoyduğu problemini bir az da dərinləşdirir: Şərə qarşı daxili etiraz. Bu əsərin qəhrəmanlarını "etiraza məcbur edən başlıca səbəb vəziyyətlərindən razı olmamaları və çıxış yolu axtara-axtara mənəvi müstəqilliyə can atmalarıdır”. “Yaşıl gecə” povesti kənd və onun problemlərinə yeni baxışdır. Bu baxış əsərin əsas obrazı Qəribin simasında ifadə edilir. Fiziki cəhətdən şikəst və xəstə olan Qərib ətrafındakı kənd fırıldaqçılarından və müftəxorlardan təmizdir. Bu obraz E.Remarkın "Borc götürülmüş həyat" [Remark, 1978] romanındakı vərəm xəstəliyinə tutulmuş qızın - baş qəhrəmanın müharibə törədən və ondan mənfəət götürən bütün ətraf adamlardan təmiz insanın obrazı ilə səsləşir. Qərib də ətrafındakıları ifşa etməkdən çəkinmir. Maraqlı orasıdır ki, Qərib şərin hardan gəldiyini dərk edir və ona qarşı çıxır. V.Nəsibin "Ceyrançöllü Qoç Kərəməli" povesti də kənddə yeni bir ictimai bəlanın - kəndlinin hesabına varlanan təbəqənin ifşasına həsr edilib. Bu xəttin əsas götürüldüyü bir povestdən məhəbbət motivlərinin güclənib məhəbbət dastanına çevrilmədiyinə narahatlığı da əbəs hesab edirik.

Kəndin sosial problemlərinə getdikcə daha çox və dərindən müdaxilə edən nəsrin tənqiddə öz müdafiəçiləri və təkzibçiləri də vardı. Y.Qarayev, Q.Xəlilov, A.Hüseynov, A.Məmmədov, V.Quliyev… kimi tənqidçilər nəsrin bu qolunu və onun müəlliflərini elə cəsarətinə görə geniş təbliğ edirdilər. Bəzi tənqidçilər isə nəsrin bu yönünü 50-ci illərin axarına-geriyə qaytarmaq üçün xüsusi məqalələrlə çıxış edirdi [Seyidov, 1979] Belə məqalələrin müəllifləri kənddə "həqiqətən, böyük nailiyyətlər qazanan zəhmət adamlarının hər birini əldən-ələ gəzəcək bir əsərin qəhrəmanı" [Seyidov, 1979] eləməyə çağırırdılar. Əlbəttə, bu çağırışa "qoşulan" povestlər də az deyildi. Kəndin problemlərindən yan keçən əsərlər məhz ideoloji sifarişlərin məhsulu idi.

Lakin dediyimiz kimi, kənd mövzusunda nəsrin sosial bəlaları ifşa edən nümunələrinin qarşısını almaq senzuranın çox çətin işinə çevrilirdi.

Maraqlı bir faktı qeyd etməliyik ki, 60-90-cı illərin kənd mövzusunda povestləri özündən əvvəlki povestlərdən bir çox cəhətləri ilə fərqlənir. Bu fərqlər xüsusilə povestin janr və məzmun keyfiyyətlərinə aiddir. Həm də eyni fərqləri biz həmin illərin rus povestində də görürük. Janrın öz hüdudlarını genişləndirməsi, kəndin sosial problemlərinə müdaxilə, insana diqqət və s. mənalarda əvvəlki dövrün povestlərindən fərqlənən müasir rus kənd povesti eyni zamanda digər xalqların nəsrinə də təsir etmişdi. Lakin deyək ki, Azərbaycan nəsrində ciddi özünəməxsusluq keyfiyyətləri daha çox idi.

Yuxarıda qeyd etdiyimiz kimi, kənd mövzusunda nəsrin xüsusiyyətlərini araşdıran rus tədqiqatçılarının əksəriyyəti, bu povestlərin başlanğıcının çox dəqiq bir vaxt olduğunu qeyd edir, L.Vilçek özünün "Kənd nəsrinin axarı ilə" [Вилчек, 1985, c.41] adlı çox maraqlı tədqiqatında yazır: “Kənd nəsrinin doğum gününü dəqiq olmasa da, onun ayını və ilini dəqiq demək olar: 1952-ci ilin sentyabrı - oxucular "Новый мир" jurnalında V.Oveçkinin "Районные будни" povestinin birinci hissəsini əllərinə aldığı gün” [Вилчек, 1985, c.41]. Bu cəhəti V. Protçenko da yuxarıda göstərdiyimiz tədqiqatında qeyd edir. Lakin bu tədqiqatçı V. Oveçkinin "Районные будни" povestini "очерк-размышление" adlandırır. V. Oveçkinin əsəri, doğrudan da, kənd haqqında "oçerk-mülahizələr"ə daha yaxındır. Ona görə də, təsadüfi deyil ki, "bu dövrdən başlayan rus kənd nəsrinə dair povestlərin əsas xüsusiyyəti oçerk janrı ilə sıx əlaqə təşkil edir”.

Rus povestləri 60-cı illər kəndinin daha çox coğrafi anlayış kimi oçerkvari dəqiq portretini çəkirdisə (məsələn, V.Solouxinin "Şeh damlası" povestində olduğu kimi), Azərbaycan povesti xüsusi bədii povestlərlə daha çox kəndin sosial-psixoloji portretinə, kənd adamının bir insan kimi qəlbinin dərinliklərinə müdaxiləsi ilə seçilirdi.

Doğrudur, rus kənd povesti çox tezliklə "oçerklilik"dən xilas oldu və bu nəsrin V.Şukşin, V.Belov, V.Rasputin kimi ustadları yetişdi. Lakin Azərbaycan povestinin bu qolunun inkişafı da sürətlə irəliyə getməkdə idi. Azərbaycan povestində də əvvəllər özünü

az-çox büruzə verən oçerklilik nəsrə yeni gələn qüvvələr tərəfindən qəti şəkildə rədd edildi. Bu yeni qol əvvəlki povestin kənd istehsalçısının - pambıqçının, üzümçünün, tütünçünün, kartofçunun, baramaçının oçerkvari portretindən başqa keyfiyyəti olmayan cəhətlərini uzaqlaşdırıb, kənd adamının milli-mənəvi xüsusiyyətlərinə, kəndin ölüb getməkdə olan lazımlı xalq adətlərinə, insanı saya salmayan rəhbərlərinin satirik obrazlarına diqqəti artırdı. Yeni povestlərdə ənənəvi mənfi-müsbət qəhrəmanlar aradan çıxır, insanın insan kimi təqdimi irəli çıxırdı. Çünki, yuxarıda dediyimiz kimi, Azərbaycan povestinin cavan qolu bir tərəfdən M.Cəlil kimi nəhəng kəndsevərin ənənəsini qoruyurdusa, digər tərəfdən sovet ədəbiyyatında dönüş yaradan Ç.Aytmatov kimi ustadlara yön çevirmişdi. Mərhum tənqidçi Aydın Məmmədov vaxtilə doğru qeyd edirdi ki, "kənd mövzusunda əsərlərimizdə, xüsusilə romanlarımızda əsas qüvvə (kollektivləşmənin, kənddə yeni təsərrüfat quruculuğunun) "müsbət-mənfi qütbləşmə" ətrafında qurulan "elastiki" süjet fonunda həll olunan sosioloji konfiliktlərə yönəldilər. Çəkinmədən deyə bilərik ki, bu əsərlərin bəzilərində süjetin "elastikliyi" real həyatın özündən daha çox yazıçının şəxsi istəyindən, hadisə qurmaq cəhdindən irəli gəlir.

Ən böyük çatışmazlıq bundan ibarətdir ki, müsbəti öz müsbətliyində ideallaşdırmağa, mənfini isə öz mənfiliyində dərinləşdirməyə aludə olan, hadisələri öz real kökündən, leytmotivindən uzaqlaşdırıb süni şəkildə şaxələndirən, əsərin arxitextonika bütövlüyünü və estetik tamlığını pozan, çoxplanlılıq axtaran yazıçılar, fərdləri, fərdi keyfiyyətləri təsadüfi hadisələrə qurban edirlər, real insanlar hadisələr çoxluğunda ölgünləşir, sıxılır, mükəmməl bədii obrazlıqdan çıxıb, saysız-hesabsız əlavə yüklərin və qayğıların daşıyıcısına çevrilirlər" [Məmmədov, 1979, s.183]. Bu məlum bir həqiqətdir ki, disharmoniyanı, fərdi əzabı, qaçqını, dərdi, istəyi inkar etməklə yaradılan harmoniya, ictimai tarazlıq mücərrəd bir şeydir və onun real kökləri yoxdur. Kəndlinin sözün əsl mənasında formalaşmış, şüurlu kolxozçu olması üçün onun bütün ruhi potensialını, düşüncə tərzini, ruhi və mənəvi aləminin ən geri-adi cəhətlərini nəzərə almaq, hərtərəfli, bütünlükdə götürmək lazım gəlir. İnsana xüsusi hörmət və qayğı planında bizim nəsrimizdə kənd mövzusunun daha dolğun poetik səpkidə həllinə keçid İ.Əfəndiyev və İsa Hüseynovun yaradıcılığı ilə bağlıdır. Məhz bu yazıçıların əsərlərində biz kənd mövzusunun yeni, poetik cəhətdən əlvan və rəngarəng həlli ilə rastlaşır, öz fərdi çırpıntıları və dəyişmələri ilə ictimai prosesləri də ehtiva edən, sözün əsl mənasında yüksək estetik dəyəri olan obrazlarla tanış oluruq. "Kənd nəsrinə" xas olan liriklik "Söyüdlü arx", "Yanar ürək" kimi əsərlərin əsas melodik konturuna çevrilmişdir. Fərd və cəmiyyət məsələsinə gəldikdə isə, yazıçı və ədəbiyyatşünas S.Zalıginin dediyi kimi "Zəmanəmizin adamının həyatında ictimailik daha çoxdur, bu həyat ailə çərçivəsindən çıxmışdır. İnsan özü haqqında düşündükcə istər-istəməz cəmiyyət haqqında düşünür; onun taleyi, cəmiyyətin taleyi ilə, onun bir parçasının, sinfinin taleyi ilə bağlıdır" [Залыгин, s.91]. Bu mənada Cahandar ağanın ("Dəli Kür") və Cəlil bəyin (S.Azəri, "Duman çəkilir") fərdi süqutu onların sinfinin süqutu olsa da, hər iki obrazın həyat platformasından keçən bəzi insani keyfiyyətlər - mərdlik və kişilik sinfilikdən çıxaraq milli məzmun qazanır və xalqımızın ruhi inkişafının müəyyən bir anı kimi yadda qalırlar. İctimai inkişafın zəruriliyi ilə dağılan sinfin nümayəndəsinin fərdi keyfiyyəti bədii-estetik yaranış kimi rəğbət doğurur [Məmmədov, 1979, s.183].

Elçinin xüsusi ustalıq və məharətlə seçib ayırdığı koloritli Abşeron mühitində nə qədər əlvan rənglər kimi bir-birindən seçilən və bir-birini tamamlayan obrazlar varmış! Baladadaş, Zübeydə, Məsməxanım, Ağababa, Kitabulla və s. obrazlar bütöv bir tablonun detalları kimi, yaşadıqları mühitin diqqəti cəlb etməyən, gözə görünməyən cəhətlərinin daşıyıcısı kimi nə qədər də millidirlər! S.Əhmədovun Hüsəni ("Qanköçürmə stansiyası") öz varlığı ilə ictimai münasibətlərin kəsişmə nöqtəsi, tarixi ilə bu gününün vəhdətindən törəyən əks-səda kimi olduqca dəyərli və güclüdür. Adları çəkilən bu üç yazıçının əsərlərində təkcə mövzu yeniliyi

qaldırılmamış, müasir ədəbi prosesimiz yeni axara - insana, fərdə hörmət, bədii reallığa, poetik səmimiyyətə hörmət axarına yönəldilmişdir.

A.Məmmədov daha sonra göstərir ki, "kənd nəsri" haqqında danışarkən onun bədii dəyəri haqqında xüsusi söhbət açmaq lazımdır.

Elçinin yaradıcılıq təcrübəsi bir daha sübut edir ki, nəsr əsərində süjet zəruriyyət kimi deyil, zərurilikdən doğan amil kimi götürülməlidir. Yazıçının yaradıcılığı bizi bir daha "roman, yoxsa povest", "müsbət qəhrəman" yoxsa real, dinamik insan" problemlərinin üzərinə qaytarır və biz bir daha əmin oluruq ki, nəsr əsərinin monumentallığı və çoxplanlılığı heç də süni süjet elastikliyindən və şaxələnməsindən deyil, əsərin özünün poetik tamlığından, arxitektonika bütövlüyündən, məqsədyönlülüyündən doğmalı, hadisələrin real açılışından törəməlidir. Xalq sözünə hörmət, dilin rəngarəng poetik imkanlarına yaradıcı münasibət, keşməkeşli insan mənəviyyatına hörmət, milli başlanğıcla bəşəri saflığın həmahəngliyinə sədaqət yazıçı əməlinin mayası olmalıdır. 60-80-ci illər ədəbi prosesimiz və bu prosesin qabaqcıl qüvvəsi olan "kənd nəsri" məhz bu mayanın bəhrəsidir.

Tənqidçi K.Vəliyev yaxşı qeyd edir ki, müasir kəndin qayğılarını, problemlərini özünəməxsus, təkrarsız və rəngarəng şəkildə təqdim edən nəsr əsərlərimizin zəngin poetik sistemi var.

İ.Əfəndiyev ilə Ə.Məmmədxanlı, İ.Hüseynov ilə S.Əhmədov, İ. Məlikzadə ilə Elçinin kənd nəsri arasındakı poetik fərq yazıçı platformasından, yazıçı dünyagörüşündən və bütün bunların nəticəsi kimi yazıçının fərdi, sənətkarlıq sisteminin müxtəlifliyindən doğur [Vəliyev, 1979, s.81].

K.Vəliyevin müşahidələri kənd nəsrinin etnogenezisini duymağa imkan verir:

“İ.Hüseynovun kənd nəsrindəki insanilik, insan probleminin birinci sırada qoyulması, bizim nəsrdə yeni iqlim yaratmışdır. Lakin bu o demək deyil ki, bizim nəsr İ.Hüseynovun poetik qəlibindən kənara çıxmamışdır. Bizim nəsrin o zamankı Ümumittifaq kontekstində özünəməxsus yazı tərzi, sənətkar bütövlüyü ilə seçilən S.Əhmədov kimi lirik deyim tərzi ilə müasir kəndin duyğulu dünyasını, kəndin psixoloji xəritəsini verən Ə.Əylisli kimi, kənd-şəhər qaynağında insan mənəviyyatının ən incə cizgilərini çəkən Y.Səmədoğlu, Elçin kimi nümayəndələri var və onların yaradıcılığı müasir nəsrimiz haqqında nikbin təsəvvür yaradır. Kənd nəsrimizin o zamankı Ümumittifaq səviyyəsində uğurları, mövzu və ideya zənginliyi, poetik axtarışları, bədii söz texnikasının yeni üfüqləri bizi sevindirir. Və sevindirməklə yanaşı, ədəbiyyatımızın sabahından daha ciddi, daha sanballı əsərlər gözləməyə haqq verir.

Azərbaycan nəsrinin İ.Məlikzadə, S.Azəri, V.Nəsib kimi nümayəndələri var ki, bu gün onların yaradıcılığı araşdırılmalıdır. Bizə elə gəlir ki, dərin və ağıllı təhlil aparmaq, bədii sözün ictimai fikir adektivatını-tənqidini yaratmaq lazımdır” [Vəliyev, 1979, s.81].

Tənqidçinin belə bir müşahidəsi dəqiqdir ki, istedadlı yazıçılardan R.Rövşənin, M.Süleymanlının, M.Orucun kəndə baxışında elə qəribə, orijinal cəhətlər var ki, Azərbaycan nəsrinin 70-80-ci illəri məhz bu cəhətlərlə bütöv görünür. Kəndin poeziyası, gözəllikləri, hünəri, uğurları, çətinlikləri, dolanbac mənəvi yolları cavan ədəbiyyatımızın prizmasından çox maraqlı, dolğun görünür və özünəməxsusluğu ilə diqqəti cəlb edir. Gənc yazıçılar kəndi duymağa, insan ürəyinin sirlərini verməklə hansı uğurları qazanıblar? Bu sualın elmi ədəbi-estetik cavabı hələ də verilməmişdir. Yaşlı, təcrübəli yazıçılarımız, sağlam tənqid bu nəsil haqqında az danışmış, onlar haqqında əsasən ötəri məlumatlar verilmiş, gəlişigözəl sözlər, resenziya informasiyası ciddi tənqidi araşdırmaları əvəz etmişdir. Azərbaycan tənqidinin əsl sözü, yəqin ki, hələ qabaqdadır.

**4.Nəticə**

Azərbaycan bədii nəsrində kənd mövzusu 1960–1990-cı illərdə həm estetik, həm də sosial baxımdan mühüm rol oynamışdır. Kənd nəsri yalnız təbiət və gündəlik həyat təsviri ilə məhdudlaşmayıb, kənd əhalisinin sosial problemlərini, mənəvi dəyərlərini və əxlaqi

dilemmasını da əks etdirmişdir. Yazıçılar kəndin reallığını poetik və bədii vasitələrlə təqdim edərək, oxucuya ictimai ədalət və insan münasibətləri haqqında dərin təsəvvür vermişlər. 60–70-ci illərin povest janrı, sosial psixoloji portretlər və oçerk elementləri Azərbaycan kənd nəsrinin özünəməxsus üslubunu formalaşdırmışdır.

Nəticə etibarilə, bu dövrün bədii nəsri kəndi həm sosial obyekt, həm də mənəvi simvol kimi təqdim edərək, cəmiyyət və fərd münasibətlərini dərindən təhlil etmişdir. Əsərlər kənd həyatının problemlərini açıq şəkildə göstərmək, milli-mənəvi dəyərləri qorumaq və oxucuya əxlaqi-intellektual mesaj çatdırmaq baxımından böyük əhəmiyyət kəsb edir. Bu yönümlü nəsr Azərbaycan ədəbiyyatında kənd mövzusunun dərinlikli öyrənilməsinə və onun ədəbi-estetik zənginliyinin vurğulanmasına xidmət etmişdir.

## 5.REFERENCES


**1.** Aitmatov, C. (n.d.). *Farewell, Gulsary.* (in Russian)
**2.** Azeri, S. (1984). *Stories.* Baku. (in Azerbaijani)
**3.** Belov, V. (n.d.). *Scholarly Work; Village Stories.* (in Russian)
**4.** Jabbarov, N. (1984). [Article]. *Ulduz,* (1), 51. (in Azerbaijani)
**5.** Jabbarov, N. (n.d.). *White Flags.* (in Russian)
**6.** Aliyeva, N. (1989). *Artistic Prose and the Village.* Baku. (in Azerbaijani)
**7.** Aliyeva, N. (1990). *Artistic Prose and the Village.* Baku. (in Azerbaijani)
**8.** Malikzade, I. (1982). Dede palid. *Azerbaijan,* (4). (in Azerbaijani)
**9.** Mammadov, A. (1979). Speech at the discussion on prose about the village theme. *Azerbaijan,* (7), 183. (in Azerbaijani)
**10.** Garayev, Y. (1988). *The Criterion is Personality.* Baku. (in Azerbaijani)
**11.** Rasputin, V. (n.d.). *Maria Needs Money; The Deadline; Farewell to Matyora.* (in Russian)
**12.** Remarque, E. (1978). *Life on Loan.* Moscow. (in Russian)
**13.** Seyidov, Y. (1979). Our Modern Village and Our Prose. *Literature and Art,* January 1. (in Azerbaijani)
**14.** Suleymanli, M. (1985). *City Weddings.* Baku. (in Azerbaijani)
**15.** Suleymanli, M. (1988). *The Voice.* Baku. (in Azerbaijani)
**16.** Shukshin, V. (n.d.). *The Third Owner of the Rooster.* (in Russian)
**17.** Vilchek, L. (1977). *Valentin Ovechkin.* Moscow. (in Russian)
**18.** Vilchek, L. (1985). Downstream of Rural Prose. *Questions of Literature,* (6), 34. (in Russian)
**19.** Valiyev, K. (1979). Speech at the discussion on prose about the village theme. *Azerbaijan,* (7), 81. (in Azerbaijani)
**20.** Khalilov, P. (1979). With Sensitivity to the Concerns of the Village. *Literature and Art,* February 17. (in Azerbaijani)
**21.** Khalilov, P. (1981). Our Life and Our Prose. *Literature and Art,* June 19. (in Azerbaijani)
**22.** Khalilov, G. (1979). With Devotion to the Land. *Literature and Art,* February 24. (in Azerbaijani)
**23.** Yusifli, V. (1984). [Article]. *Ulduz,* (4), 45. (in Azerbaijani)
**24.** Zalygin, S. (n.d.). *Literary Concerns.* (in Russian)


## ƏDƏBİYYAT


**1.** Айтматов, Ч. (n.d.). *Прощай, Гюльсары.*
**2.** Azəri, S. (1984). *Povestlər.* Bakı.
**3.** Белов, В. (n.d.). *Учёное дело; Деревенские рассказы.*
**4.** Cabbarov, N. (1984). [Məqalə]. *Ulduz,* (1), 51.

**5.** Cabbarov, N. (n.d.). *Белые флаги.*
**6.** Əliyeva, N. (1989). *Bədii nəsr və kənd.* Bakı.
**7.** Əliyeva, N. (1990). *Bədii nəsr və kənd.* Bakı.
**8.** Məlikzadə, İ. (1982). Dədə palıd. *Azərbaycan,* (4).
**9.** Məmmədov, A. (1979). Kənd mövzusunda nəsrin müzakirəsində çıxışı. *Azərbaycan,* (7), 183.
**10.** Qarayev, Y. (1988). *Meyar şəxsiyyətdir.* Bakı.
**11.** Распутин, В. (n.d.). *Марии нужны деньги; Последний срок; Прощание с Матёрой.*
**12.** Ремарк, Э. (1978). *Жизнь взаймы.* Москва.
**13.** Seyidov, Y. (1979). Müasir kəndimiz və nəsrimiz. *Ədəbiyyat və incəsənət,* 1 yanvar.
**14.** Süleymanlı, M. (1985). *Şəhər toyları.* Bakı.
**15.** Süleymanlı, M. (1988). *Səs.* Bakı.
**16.** Шукшин, В. (n.d.). *Третий хозяин петуха.*
**17.** Вильчек, Л. (1977). *Валентин Овечкин.* Москва.
**18.** Вильчек, Л. (1985). Вниз по течению деревенской прозы. *Вопросы литературы,* (6), 34.
**19.** Vəliyev, K. (1979). Kənd mövzusunda nəsrin müzakirəsində çıxışı. *Azərbaycan,* (7), 81.
**20.** Xəlilov, P. (1979). Kəndin qayğılarına həssaslıqla. *Ədəbiyyat və incəsənət,* 17 fevral.
**21.** Xəlilov, P. (1981). Həyatımız və nəsrimiz. *Ədəbiyyat və incəsənət,* 19 iyun.
**22.** Xəlilov, Q. (1979). Torpağa sədəqətlə. *Ədəbiyyat və incəsənət,* 24 fevral.
**23.** Yusifli, V. (1984). [Məqalə]. *Ulduz,* (4), 45.
**24.** Залыгин, С. (n.d.). *Литературные заботы.*